


*Biz beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdıq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdik. Biz ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğala son qoyduq. Ümid edirəm ki, biz bölgədə bu gün və gələcək üçün yeni təhlükəsizlik, yeni əməkdaşlıq formatını təşkil etdik.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Bütövləşən Azərbaycanın xoş sədası dünyanın hər yerindən eşidilir

**44 günlük Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, müzəffər ordumuzun cəsurluğu, qəhrəmanlığı nəticəsində zəfərlə başa çatdı. Bu tarixi qələbə əbədiyaşar şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazanıldı və Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazıldı. İşğal altındakı ərazilərimiz düşməndən azad olunandan bir neçə gün sonra Prezident İlham Əliyevin, həm də müzəffər Ali Baş Komandan kimi, eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tarixi torpaqlarımıza səfərləri hər birimizdə qürur hissi yaratdı. Dövlətimizin başçısı 27 ildən sonra həmin ərazilərdə bayrağımızı ucaltdı və bəyan etdi ki, bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu yaşamışıq, bizim xalqımız yaşayıb.**

**Bundan sonra da hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir.**

**Tək döyüş meydanında deyil, arxa cəbhədə Ali Baş Komandanımızın ətrafında daha sıx birləşməli və bir yumruq kimi olmaqda davam etməliyik. Otuz illik Qarabağ həsrətinə son qoyulmasında, Azərbaycanın bütövlüyünün təmin olunmasında siyasi iradə nümayiş etdirən Prezident İlham Əliyevə, ordumuzun hər bir əsgər və zabitinə minnətdarıq. Bu şərəfli və tarixi yolda canlarını qurban verən şəhidlərimizin ruhu qarşısında baş əyirik.**

## Sədası dünyanın hər yerindən gələn qələbəmiz

Azərbaycanın qazandığı tarixi qələbənin sədası dünyanın hər yerindən eşidilir. Dövlətimizin başçısına ünvanlanmış təbrik məktublarından da hiss olunur ki, Ermənistanın işğalçı siyasəti, vandalizmi, dinc əhaliyə qarşı amansız rəftarı dünya ictimaiyyətini də cana doydurubmuş. Hətta Fransa Senatı və Milli Assambleyası qondarma "dqr" - in tanınması barədə qətnamə qəbul etsələr belə, baxmayaraq ki, Fransa ATƏT-in Minsk qrupu həmsədrlərindən biridir, həmin ölkədə də Ermənistanın məğlubiyyətini, Azərbaycanın parlaq qələbəsini sevinclə qarşılayanlar var. Bu ölkənin "CİFAL" qrupunun prezidenti Jil Reminin dövlət başçımıza ünvanladığı təbrik məktubundakı bəzi məqamları diqqətə çatdırmaq istərdim: "Azərbaycan və onun xalqı üçün bu şərəfli və xoşbəxt tarixi məqamda 25 ildən çox müddətdə işğal altında qalan ərazilərin azad edilməsi münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Bu qələbə öz xalqına arxalanan, uğurlu və parlaq hərbi və diplomatik əməliyyatı idarə edən dövlət xadiminin sayəsində əldə olundu".

Təbrik məktubunda daha sonra yazılır: "Bu gün Siz atanızın ən ali məqsədi olan Azərbaycanın suverenliyini onun bütün ərazisi üzərində bərpa etdiniz. Siz onun layiqli davamçısısınız".

J.Remi Fransa Senatının və Milli Assambleyasının qondarma "dqr"-i tanıması haqqında qətnamə qəbil etməsini, onun ölkəsində anti- Azərbaycan təbliğatı aparılmasını da pisləyib: "Bu son çətin dövrdə Fransada həm mətbuat sahəsində, həm də siyasi müstəvidə çox güclü anti-Azərbaycan dairələrlə mübarizə aparmaq asan olmadı. Lakin mənim üçün ən ağrılısı o oldu ki, hazırkı Fransanın hakim dairələri nəinki ölkəmizin Minsk qrupuna həmsədrliyi çərçivəsində münaqişənin həlli yolunu tapa bilmədilər, hətta beynəlxalq hüququ pozaraq, Ermənistan hakimiyyətinin tərəfini tutdular".

Azərbaycanın haqq işinə, qələbəmizə sevinən, bu münasibətlə dövlətimizin başçısına təbrik məktublarının ardı-arası kəsilmir. Bu, həm dövlətimizə, onun başçısına olan hüsn-rəğbətdən, həm də işğalçı Ermənistana nifrətdən irəli gəlir.

Avstraliya Azərbaycan Assosiasiyasının sədri Mikayil Oyta, Böyük Britaniya parlamentində Azərbaycanla dostluq qrupunun sədri Bob Bləkmən, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin müavini İlyas Umaxanov, Qafqaz mənşəli Dağ Yəhudilərinin Ümumisrail Birliyinin sədri, Dağ yəhudilərinin parlament lobbisinin baş direktoru Pavel Yelizarov, Əfqanıstanın Azərbaycandakı sabiq səfiri Məhəmməd Taqi Xəlili, Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli, Qırğız Respublikasının Joqorku Keneşin, Azərbaycan – Qırğızıstan dostluq qrupunun rəhbəri Tazabek İkramov, ISESCO - nun sabiq Baş direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Əbdüləziz bin Osman əl-Tuveycri, Ümumdünya İslam Xeyriyyə Təşkilatı Asiya Müsəlmanları Komitəsinin Direktorlar Şurasının sabiq sədri Adil Abdullah əl-Fəlah, Dövlətlərarası Aviasiya Şurasının prezidenti, Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodina və onlarca digər ölkələrin tanınmış ictimai-siyasi xadimlərindən gəlmiş təbrik məktublarında birmənalı olaraq ölkənin haqlı mövqeyini müdafiə edirlər: Qarabağ - Vətən Müharibəsində qazanılan möhtəşəm Qələbə münasibətilə, sevinc və həyəcan dolu böyük fəxarət və qürur hissi ilə Sizə ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaq istərdik.

Zati-aliləri, Siz Azərbaycanın yeni tarixini qızıl hərflərlə yazdınız. Bu şanlı zəfər Heydər Əliyevin layiqli davamçısı olaraq, Sizin müdrik, uzaqgörən siyasətiniz, böyük zəhmətiniz, əzmkarlığınız və qətiyyətiniz sayəsində əldə edildi...

Dünyanın aparıcı kütləvi informasiya vasitələrində erməni vəhşiliyindən və Azərbaycanın parlaq qələbəsindən bəhs olunan məqalələrin və fotoların dərc olunması ölkəmizin dünyada artan reytinqinin göstəricisidir. Məsələn, Rusiyanın "Kommersant" qəzetinin müxbiri Ağdam bölgəsində ermənilər tərəfindən dağıdılmış Azərbaycan qəbiristanlıqlarını və məscidlərini göstərib. O, ermənilərin bu cinayətlərini vəhşilik adlandırıb.

İtaliya parlamentinin Deputatlar Palatasının nümayəndə heyətinin Gəncə şəhərinə və Ağdam rayonuna səfərlərinin əsas məqsədi Ermənistan ordusunun törətdiyi terrorun nəticələrini görmək olub. Böyük dağıntıların şahidi olan və bundan dəhşətə gələn italiyalı deputatlar insanlığa xas olmayan erməni vəhşiliyini dünyaya çatdıracaqlarını və bu məsələni parlamentdə müzakirəyə çıxaracaqlarını deyiblər.

Hazırda dünyanın müxtəlif ölkələrindən təbrik məktubları gəlməkdədir. Onların əksəriyyətində də ölkəmizin qazandığı parlaq qələbədə Prezident İlham Əliyevin xüsusi rolu olduğu bildirilir. Qeyd olunur ki, uzun müddət davam etmiş bu münaqişənin nizamlanmasında Sizin göstərdiyiniz mərdlik, müdriklik, əzm və təmkinə ancaq qibtə etmək olar. Beləliklə, köçkünlərin dinc qurucu əməklə məşğul olmaq üçün öz doğma evlərinə qayıtmalarına yol açılır. Siz dahi atanızın vəsiyyətini həyata keçirdiniz".

## Təhdid və təzyiqlərə layiqli cavab

Torpaqlarımızın 30 ilə yaxın müddətdə işğal altında qalmasında Ermənistanın havadarlarının, xüsusilə, qərəzli beynəlxalq təşkilatların təcavüzkar ölkəyə dəstək verməsi mühüm rol oynadı. Dünyada baş alıb gedən ədalətsizlik, ikili standartlar və islamofobiya, Ermənistanın beynəlxalq hüquq normalarına, Cenevrə Konvensiyasına hörmətsiziliyinə göz yumulması, onların törətdikləri vandal aktlarına qarşı ATƏT-in Minsk qrupunun lal, kar və kor olması erməniləri getdikcə həyasızlaşdırdı.

Ermənistan silahlı qüvvələri tərəfindən hər dəfə sərhədboyu ərazilərdə hər hansı bir təxribat törədiləndə beynəxalq təşkilatlar bütün günahı ölkəmizin üzərinə ataraq dərhal təhdid və təzyiqlərə başlayırdılar. Dövlətimizin başçısı dekabrın 1- də xalqa müraciətində də bu məsələni açıq şəkildə bəyan etdi. Dedi ki, bu 17 il ərzində dəfələrlə bizə müxtəlif yerlərdən, xarici dairələrdən belə siqnallar gəlirdi ki, indi beş rayonu alın, bununla da kifayətlənin. Siz müharibədə məğlubiyyətə uğramısınız, Ermənistan müharibədə, – Birinci Qarabağ müharibəsi nəzərdə tutulurdu, – qələbə qazanıb. Siz reallıqlarla razılaşın. İndi beş rayon ki, sizə vəd verilir, o da böyük şeydir, siz onu alırsınız, Laçın, Kəlbəcər də qalsın sonraya, siz nə vaxt müstəqillik versəniz Dağlıq Qarabağa, o vaxt da o rayonların bir hissəsi sizə qayıda bilər.

Bütün bunlara baxmayaraq, dövlətimizin başçısı təzyiq və təhdidlərin qarşısından çəkilmədi və "Qarabağ Azərbaycandır, nida işarəsi" dedi. Qətiyyətlə bildirdi ki, Azərbaycanda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək. Bu yolda xalqın sıx həmrəyli, dövlət başçısının ətrafında yumruq kimi birləşməsi qələbəyə gedən yolu daha da yaxınlaşdırdı. Ölkənin 50 siyasi partiyası Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olduğuna dair bəyanat imzaladı. Bu da milli və siyasi həmrəyliyin parlaq göstəricisi idi. Birgə bəyanat ölkəmizdə siyasi müstəvidə etibarlı və peşəkar münasibətlərin qurulmasına zəmin yaratdı. Hətta, Ermənistanın acınacaqlı məğlubiyyətindən sonra da təhdid və təzyiqlər açıq şəkildə həyata keçirildi. Məsələn, ATƏT-in həmsədr dövlətlərindən biri Fransa Senatının və Milli Assambleyasının qondarma "dqr"-in müstəqilliyini tanıması haqqında qətnamə qəbul etmələri ölkəmizə qarşı açıq təzyiqdir.

Dövlət başçımızın bütün təhdid və təzyiqlərə mətinliklə sinə gərməsi, Azərbaycanın işğal olunmuş ərazilərini güc yolu ilə azad etməsi Dağlıq Qarabağ problemi ətrafında da tamamilə yeni reallıq formalaşdırıb. Bu reallıq ondan ibarətdir ki, ərazi bütövlüyümüz təmin olundu və Ermənistanın Dağlıq Qarabağın statusu ilə bağlı bütün planlarının üstündən xətt çəkildi. Bütün dünya gördü ki, dövlət başçımızın rəhbərliyi ilə Azərbaycan Ordusu separatçı rejimlərə və işğal siyasətinə son qoydu. 30 ildir danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini, hətta havadarlarının təzyiqləri ilə belə əldə edə bilmədi. Dövlət başçısının qətiyyəti, Azərbaycan Ordusunun qəhrəmanlığı təhdid və təzyiqlərə layiqli cavab oldu.

## Qarabağ Azərbaycandır!

Otuz ilə yaxın idi ki, Azərbaycanın ərazisinin 20 faizi düşmən tapdağı altında qalmışdı. 44 günlük Vətən Müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin və rəşadətli ordumuzun tarixi zəfəri ilə başa çatdı. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Xalqımız daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya göstərdi və düşmən üzərində tarixi zəfər çalaraq, ərazi bütövlüyünü təmin etdi.

Bu qələbənin ən mühüm əhəmiyyəti Azərbaycanın bütövləşməsidir. Artıq Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Daha torpaqlarımızın 20 faizinin işğal altında olması kimi utancverici sözlərdən uzağıq. Biz qələbə çalmışıq, torpaqlarımıza göz dikən düşməni məhv etmişik. Ərazimizin 20 faizinin işğal altında olmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatın inkişaf tempinə görə dünyada lider dövlətlərdən biri olub. Xüsusilə, dünyanın başı üzərini koronavirus kabusu alanda da ölkəmiz öz inkişaf tempindən qalmadı. Əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində nəzərdə tutulmuş sosial layihələr icra olundu, əmək haqları, pensiyalar artırıldı. Çətin pandemiya dövründə, böhranın davam etdiyi müddətdə dünyanın 150 ölkəsi kredit üçün beynəlxalq maliyyə qurumlarına müraciət etdi. Ancaq ölkəmizin adı kredit siyahısında olmadı. Biz öz hesabımıza yaşayırıq. İndi Azərbaycan bütövləşib. İşğaldan azad olunmuş ərazilərimiz bərpa olunacaq və oralarda da həyat əvvəlki axarına düşəcək. Bundan sonra deməyəcəyik ki, ərazimizin 20 faizi işğal altındadır. Deyəcəyik ki, xoş sədası dünyanın hər yerindən eşidilən bütövləşmiş Azərbaycan! Dövlət başçımızın dediyi kimi, Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***